BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 Humanitar elmlər seriyası 2009

# İLAHİYYAT

## İSLAMDA NİKAH VƏ AİLƏ ETİKASI

**V.M.MƏMMƏDƏLIYEV, Q.T.MƏMMƏDƏLIYEVA**
*Bakı Dövlət Universiteti*
*salman_71@live.com*

*Cəmiyyətin əsasını təşkil edən ailə islamda yüksək qiymətləndirilir. Müsəlman dinində ailənin ictimai-mənəvi, əxlaqi və hüquqi statusu şəriət və dövlət tərəfində ciddi qorunur. Məqalə də ailənin qorunması məsələsinə toxunur və ailənin təməlini təşkil edən nigahın şərtlərini təqdim edir.*

Ailə cəmiyyətin əsasını təşkil edən bir qurum kimi islam dinində çox yüksək qiymətləndirilir. Ailənin əxlaqi, ictimai və hüquqi statusu islam dinində ciddi təsbit edilmişdir.

Ailə bir kişi ilə bir qadının nikahından (evlənməsindən) meydana gəlir. Uşaqlar doğulduqdan sonra isə ailə tədriclə böyüyür və cəmiyyətdə özünəməxsus mövqe tutmağa başlayır. Ailənin təməlini təşkil edən nikahı islam dini geniş surətdə təbliğ və təşviq edir.

Məlum olduğu kimi, islam dinində rahiblik yoxdur. İslam dünya və axirəti üzvü surətdə birləşdirir, dünyaya xatir axirəti əldən verməməyi, axirətə xatir isə dünya nemətlərindən məhrum olmamağı, dünyanı unutmamağı, evlənməyi, ailə qurmağı tövsiyə edir. Qurani-Kərimdə Allah - Təala bu barədə belə buyurur: “Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda sevgi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir” (Rum, 21).

Başqa bir ayədə belə deyilir: “İçərinizdən olan subayları, əməlisaleh kölə və cariyələrinizi evləndirin. Əgər onlar yoxsuldurlarsa, Allah onları öz lütfü ilə dövlətli edər. Allah geniş lütf sahibidir, hər şeyi biləndir” (Nur, 32).

Peyğəmbərimiz (s.ə.s): “Evlənin, çoxalın, çünkü mən ümmətimin çoxluğu ilə öyünürəm”- deyə buyurmuşdur (1, Nikah,1).

İslam dini ərəblərin özündən əvvəlki Cahiliyyət dövrünün evlənməklə bağlı qeyri-əxlaqi, çirkin adət-ənənələrini ləğv etmiş, onları öz qanunları ilə əvəz etmişdir.

İslam dinində evlənmənin əsas şərtlərindən biri ailə quracaq şəxslərin elçilikdən, nişandan, nikahdan qabaq bir-birini görmələri, bir-birinə bələd olmalarıdır. Ömrü boyu bir yerdə yaşayacaq, bir yastığa baş qoyacaq cütlüyün evlənənə qədər bir-birini görüb tanıması təbii bir şey olduğu üçün islam dini də bu məsələni vacib bilir.

Peyğəmbərimizin (s.ə.s) Myğirə bin Şöbəyə: “Evlənmək istədiyin qadına bax. Çünki (evlənməzdən əvvəl) onu görmək aranızdakı izdivacın keçərli olmanı təmin edər” buyurması evlənənlərin bir-birini görməsi lüzumunu təsdiq edir (2, Nikah, 5).

Yenə də peyğəmbərimiz Məhəmməd (s.ə.s.): “Hər hansı biriniz bir qadınla evlənmək istəyirsə, əlindən gələn qədər o qadına baxsın” buyurmuşdur (3, Nikah, 20).

İslam alimləri Peyğəmbərin bu hədislərindən çıxış edərək kişinin evlənmək istədiyi qadının əllərinə, üzünə, hətta gözlərinə baxmağını mümkün hesab edirlər. Eyni şey qadın üçün də mümkün hesab olunur. Lakin burada bir şeyi qeyd etmək lazımdır ki, islama görə, evlənəcək kimsələrin bir-birini görmələri, bir-biri ilə danışmaları, xəlvətdə deyil, aşkarda olmalıdır. Bu zaman qızın məhrəmlərindən, yaxud qadınlardan üçüncü bir şəxsin də orada olması lazımdır (4, I, 509). Çünki islama görə, evlənənlərin nikahdan əvvəl xəlvətdə bir yerdə olmaları mümkün deyildir.

Nikahın əsas şərtlərindən biri də cütlüyün bir-birini istəyərək evlənməsidir. Oğlan və qızın hər hansı birinin atası, yaxud ona qəyyumluq, hamilik edən birisi tərəfindən zorla evləndirilməsinə icazə verilmir.

Peyğəmbərimiz buna işarə edərək “Dulun əmri, bakirənin də izni olmadıqca onları evləndirməyin” demişdir (5,Nikah,11). Bəzi fəqihlər belə hesab edirlər ki, bakirə qızın evlənməsində onun ixtiyarı atasının, yaxud qəyyumunun əlində, dul qadın olduqda isə onun öz əlindədir. Lakin Peyğəmbərin yuxarıdakı hədisi evlənmə zamanı onların hər ikisinin razılığının alınmasının zəruri olduğunu sübut edir. Bundan əlavə Peyğəmbərin dövründə öz razılıqları olmadığı halda zorla ərə verilmiş qadınların onun yanına gəlib kəbinlərini, nikah əqdlərini pozdurmaları da məlumdur (5, Nikah,3).

İslama görə, evlənmələr ancaq bir-birini görüb bəyəndikdən və ailə qurmağa razılıq verdikdən sonra elçilik, nişan, kəbin, toy, mərasimləri həyata keçirilir. Toyda musiqi çalınmalı, toy məclisinə gələnlərə ziyafət vermək lazımdır. Toyda vəlimə (yemək) vermək, islami qaydalara uyğun olaraq çalıb-oxumaq, obrazlı desək, səs çıxarmaq qəbul olunmuş bir adətdir və buna heç bir maneə yoxdur. Peyğəmbərimiz əleyhissəlam bu barədə belə buyurmuşdur: “Nikahı (evlənməni) açıq-aşkar surətdə edin və dəf çalın!”(6, 90).

Qeyd etmək lazımdır ki, burada “dəf çalın” ifadəsindən məqsəd ümumiyyətlə, çalıb-oxumaq, musiqidir, bir şərtlə ki, onun ifası zamanı açıq-saçıqlıqdan, bayağılıqdan çəkinilib islami qaydalara riayət olunsun.

“Nikahı məsciddə edin” ifadəsinə gəldikdə isə, qeyd etmək lazımdır ki, o zaman xüsusi toy salonları, şadlıq evləri, toy etmək üçün ayrıca yerlər olmadığı üçün məscidlərdən həm də toplantı yerləri kimi istifadə edilirdi. Onların tikiliş tərzi də buna əlverişli idi (6,90). Toyda çalınıb-oxunacaq şərqilərin, ifa ediləcək musiqinin hər bir millətin öz ruhuna, öz mədəniyyətinə uyğun olması isə təbiidir.

Toyda iştirak edənlərin evlənənləri təbrik etmələri ən gözəl adətlərdən biri hesab edilir. Peyğəmbərimiz (s.ə.s) evlənənləri: “Allah mübarək eləsin, bərəkətinizi artırsın, aranızı xeyirlə birləşdirsin” sözləri ilə təbrik edərdi.

Toyda kasıbların yeməsinə xüsusi diqqət yetirmək, onlara xüsusi hörmətlə yanaşmaq lazımdır. Peyğəmbər əleyhissəlam “Ən pis vəlimə (qonaqlıq) varlıların çağırılıb, kasıbların unudulduğu toy ziyafətidir” deyə buyurmuşdur (5,72).

İslam dini quldarlığın əleyhinədir və həmişə müxtəlif üsullarla qurdalığın ləğvinə çalışmışdır. İslamda cinsindən asılı olmayaraq insanın alınıb-satılması qadağandır. Məxluqatın əşrəfi olan insanın qiyməti heç bir pul və ya malla ölçülə bilməz. Bununla yanaşı, islamda kişinin evlənəcəyi qadına mehr verməsi caizdir. Quranın 7 “Nisa“ surəsinin IV ayəsində bu məsələyə açıq- aydın işarə edilmişdir.

Mehrdən qazanc mənbəyi kimi istifadə edilməsi dinimizdə bəyənilən əməl

olmasa da, mehr islamdan əvvəl ərəblər arasında, eləcə də bir çox şərq və qərb ölkələrində geniş yayılmış adətlərdən biri olduğu üçün islam dini də ona mane olmamış, bir ürf, bir adət kimi onu saxlamışdır. Fərq isə bundan ibarətdir ki, islamdan əvvəlki Cahiliyyət dövründə ərəblər arasında mehr qadının atasına, qəyyumuna çatdığı halda, islamda qadının özünə çatır.

İslamda mehr evlənən cütlər arasında nikah əqdi bağlanarkən kişinin izdivac etdiyi qadına öz razılığı, öz xoşu ilə verdiyi mala deyilir ki, bu da sadəcə olaraq qadının haqqıdır. Mehr qadının şərəf və ləyaqətini, heysiyyətini qorumaq üçün ödənilən təzminat, kiçik bir güvənc vasitəsidir. Mehr əsla qadının dəyəri deyil və ola da bilməz. Çünkü bir ana, bir insan kimi qadının qiymətini heç bir şeylə ölçmək olmaz.

Mehr bir ilahi töhfə olduğu üçün, islam şəriətində onun miqdarı dəqiqliklə təyin edilməmişdir. Hərə öz gücünə görə istədiyi qədər mehir verə bilər. Mehrin aşağı, yuxarı həddi haqqında islam alimləri müxtəlif fikirlər söyləmişlər. Məsələn, Əbu Hənifəyə görə, mehrin aşağı həddi on dirhəm, İmam Malikə görə üç dirhəmdir. İmam Şafii və İmam Əhmədə görə isə aşağı hədd üçün məhdudiyyət yoxdur. Müəyyən edilən miqdarın hamısı mümkündür. Peyğəmbərimizin bir cüt başmaq, bir dəmir üzük və Quran öyrətmək müqabilində nikah əqdi bağladığı məlumdur (6,85-86). Buradan aydın olur ki, kişi öz imkanı daxilində mehr verməlidir. Mehri gəlir mənbəyinə, qazanc vasitəsinə çevirmək olmaz.

Nişan üzüyünün mehr qəbul edilib edilməyəcəyi, bunun məcburi bir adət olub olmaması, qadının da kişiyə eyni qiymətdə üzük təqdim edib etməməsi mübahisə mövzusu ola bilər. Lakin kişinin qadına hansı növdən olursa olsun, imkanı daxilində bir üzük hədiyyə etməsi islam dininə zidd bir hərəkətdir demək olmaz (6,86).

Bura qədər söylənilən ailə həyatının başlanmasına qədər görülməsi lazım olan işlərdir. Əsl ailə həyatı isə zifaf gecəsindən, evlənənlərin ər-arvad kimi bir yerdə yaşamasından sonra başlanır.

İslam dini ailə etikasında aşağıdakı məsələlərə xüsusi diqqət yetirir:

1.Ərlə-arvad, qadınla kişi ailənin möhkəmliyi, davamlı olması, uşaqların tərbiyəsi üçün qarşılıqlı məsuliyyət daşıyırlar. İslam dininə görə, ailənin başçısı kişi (ər) olmalıdır. Bu isə kişinin fitri olaraq qadına nisbətən daha güclü yaradılmasından, fiziki cəhətdən qadına nisbətən daha qüvvətli olmasından, ailənin dolanışıq yükünün onun çiyninə düşməsindən irəli gəlir. Qurani-Kərimdə bu haqda belə deyilir: “Kişilər qadınlar üzərində ixtiyar sahibidirlər. Bu, Allahın onlardan bir qismini (kişiləri) digər bir qismindən (qadınlardan) üstün etməsi və kişilərin öz mallarından (qadınlar üçün) sərf etməsinə görədir” (Nisa,34).

Evin , ailənin bütün xərci kişinin üzərinə düşür. Kişi hər vəchlə çalışıb ailəsini dolandırmalıdır. İslam qanunlarına görə, əmək qabiliyyəti olub işləməyən, beləliklə də ailəsini dolandırmayan kişi dövlət tərəfindən zorla işləməyə məcbur edilir, bununla da onun ailəsinin dolanması təmin olunur. Əmək qabiıliyyəti olmayan kişinin yaxın qohum-əqrabası ona ailəsini dolandırmaqda kömək etməlidir. Bu da mümkün olmadıqda dövlət ailənin dolanışığını öz üzərinə götürür.

Kişi bayırda işləyib-çalışıb ailəsinin dolanışığını təmin etməli, qadın isə kişinin idarəsi altında ev işləri ilə məşğul olmalıdır. Lakin bu heç də qadının işləmək hüququnu inkar etmir. Qadın ərə getdikdən sonra da ailənin ümumi razılığı əsasında müsəlman qanunlarına, islam əxlaqına riayət edilən yerlərdən birində işləyə bilər. İslamda evlilik qadını işləməkdən məhrum etmir. Bu, qadının öz istəyinə bağlıdır. Peyğəmbərimizin (s.ə.s.) birinci xanımı Xədiceyi-Kübranın ərə getdikdən sonra

ticarət fəaliyyətini davam etdirməsi buna sübutdur. Onu da qeyd etmək lazımdır ki, qadın işləyib pul qazansa belə, ailəni dolandırmaq kişinin boynundadır. Qadın istəsə öz qazancından ailəsi üçün xərcləyə bilər, istəməsə yox.

2.Bəzi islam məzhəblərində, xüsusilə Hənəfilikdə qadın öz körpəsini əmizdirməyə məcbur deyildir. Əgər qadın öz uşağını əmizdirmək istəməsə, ata uşaq üçün süd anası tutmalı, uşağını əmizdirən ana bu iş üçün süd haqqı tələb etsə, kişi ona imkanı daxilində müəyyən məbləğ pul verməlidir. Lakin analıq məhəbbəti, övlad sevgisi hər şeydən üstün olduğuna görə müsəlman qadınlar arasında uşağını əmizdirmək istəməyən analara, demək olar ki, rast gəlinmir. Digər tərəfdən, uşağa süd vermək qadın üçün sağlamlıq baxımından da olduqca əhəmiyyətlidir.

Quran müfəssirlərindən Qurtubinin haqlı olaraq göstərdiyi kimi, kişilərin qadınlara nisbətən üstün yaradılması əslində qadınların lehinə olan bir üstünlükdür. Çünki kişilərin əql və idarəçilik baxımından qadınlardan fərqli olması idarə etmə işini onların üzərinə qoyur. Kişilərin fiziki cəhətdən üstünlüyü, qüvvətli olması isə ailəni dolandırmaq və qorumaq işini onların boynuna yükləyir (7,V,169).

Belə bir üstünlük, belə bir hakimiyyət əslində ailə ocağının qorunması, himayəsi, davamı və idarəsi baxımından ailə daxilində olan bir vəzifə bölgüsüdür, yoxsa o, qadının şəxsiyyət və ləyaqətini heçə endirən, onu əsir və kölə vəziyyətinə salan bir üstünlük deyildir və ola da bilməz. Hətta belə bir üstünlük şəraitində belə, islama görə, kişi qadının dininə (əgər kitab əhlidirsə), malına, hüququna və azadlığına müdaxilə edə bilməz. Göründüyü kimi, kişilərə verilən bu üstnünlük haradasa qadınlar üçün bir lütfdür (5,95-97).

Qadınla kişini müqayisə etdikdə onların bir-birindən üstün yönlərini görmək mümkündür. Belə ki, qadınlar ev işlərində- uşaqlara baxmaqda, yemək bişirməkdə, paltar yumaqda, səliqə-sahman yaratmaqda kişilərdən üstündürlərsə, kişilər də bayır işlərində, böyük fiziki qüvvə tələb edən işləri görməkdə qadınlardan üstündürlər. Beləliklə, ailədə, bütövlükdə insan cəmiyyətində qadınla kişi bir-birini tamamlayan qoşa varlıqdır.

Yuxarıda deyilənlərdən aydın olur ki, islam dininə görə, qadın ailə başçısı kimi kişiyə tabe olmalıdır. Lakin bu kor-koranə bir tabeçilik deyildir. Ailə başçısı olan kişi hər şeydən əvvəl ailə daxilində ədaləti gözləməli, insafı əldən verməməlidir. Əks təqdirdə heç bir tabeçilikdən, itaətdən söhbət gedə bilməz.

3. Dinimizdə evli qadından tələb olunan əsas məsələlərdən biri də onun nəfsini zina təhlükəsindən qoruyaraq ərini bu barədə utandırmamaq, həyat yoldaşı kənarda olduğu zaman onun evini və malını mühafizə etməkdir. Çünki hər bir müsəlmanın (ümumiyyətlə hər bir insanın – V.M.) malı, qanı və namusu qorunmağa layiqdir (8,X,89).

4. Ailənin sirlərini qorumaq barədə qadın və kişi eyni dərəcədə məsuliyyət daşıyırlar. Rəvayətə görə, Peyğəmbər (s.ə.s.) bir dəfə xanımı Həfsəyə bir söz söyləmiş, Həfsə də həmin sözü Peyğəmbərin digər bir zövcəsi Aişəyə bildirmişdi. Allah-Təala bu işdən xoşlanmamış, “Təhrim” surəsinin 66-cı ayəsini göndərərək ailə sirlərinin faş edilməsini möminlərə yasaq etmişdir.

5. Ailədə uşaqlara münasibət eyni olmalıdır. Uşaqlara eyni gözlə baxılmalı, onların yeyimi və geyimi eyni səviyyədə olmalıdır. Uşaq anadan olduqda onun sağ qulağına azan, sol qulağına iqamə oxumaq lazımdır. Ata-ana uşaqlardan birini o birindən üstün tutmamalı, hamısına eyni gözlə bxmalıdırlar. Bəzi ailələrdə oğlan uşaqlarının qızlara nisbətən daha çox istənilməsi, daha artıq əzizlənməsi, ərköyün

böyüdülməsi müşahidə olunur ki, bu da islama zidd bir hərəkətdir. Peyğəmbərimiz (s.ə.s) bunu pisləmiş və "Əgər övladlardan kiməsə üstünlük verilməli olsaydı, mən qız uşaqlarına üstünlük verərdim" – deyə buyurmuşdur.

6.Ər-arvad uşaqların yanında bir-biri ilə uca səslə danışmamalı, bir-birinin üstünə qışqırmamalı, bir- birini acılayıb təhqir etməməlidirlər. Bu, uşaqlara çox pis təsir edir və gələcəkdə həmin adətin onlarda da təkrar edilməsinə səbəb olur.

Uşaqlardan biri yersiz bir hərəkət etdikdə, nalayiq bir iş gördükdə ata uşağı danlayarkən ana onu müdafiə etməməli, yaxud ana uşağın hər hansı bir hərəkətinin yaramaz olduğunu dedikdə ata onun əksini söyləməməlidir. Uşağı hər hansı bir məsələ barəsində danlayarkən, məzəmmət edərkən ata-ananın sözü eyni olmalıdır. Belə bir danlağın və tənqidin ciddi təsiri və əhəmiyyəti olur.

7.Uşaqlara yaxşı, cəmiyyətdə məqbul olan, qulağa xoş gələn adlar qoyulmalıdır. Elə adlar qoyulmalıdır ki, uşaq böyüyəndə öz adından utanmasın və adı barəsində valideynlərdən inciməsin. Ata-ana uşaqlarına ədəb-ərkan öyrətməli, onlara müəyyən dini məlumatlar verməli, övladlarının dövrün, zamanın, cəmiyyətin tələblərinə uyğun təhsil almalarına imkan yaratmalı, bu məsələyə xüsusi diqqət yetirməlidirlər.

8.Bütün insanlar eyni bacarıq, eyni qabiliyyət sahibi deyillər.İnsanlar məsum da deyillər. Hər hansı bir insanda müəyyən bir bir qüsur, müəyyən bir nöqsan tapa bilərsən. Bu qüsur, nöqsan obyektiv və subyektiv ola bilər. Ər-arvad birgə yaşadıqları müddət ərzində bir-birində müşahidə etdikləri nöqsanları başqalarına deməməli, kənara çıxartmamalı, əksinə çalışıb onları qarşılıqlı şəkildə aradan qaldırmalıdırlar. Ər-arvad bir-birində ayıb axtarmamalı, hər xırda şeyi ayıb sayıb onun üstünü vurmamalıdırlar.Təcrübə göstərir ki, bu cür məsələlərdə ifrata varmaq ailənin dağılmasına, güzəştə getmək isə ailənin daha da möhkəmlənməsinə səbəb olur.

9. Qadın ailədə nahaq yerə dikbaşlıq edib ərinin sözünə baxmadıqda, özünü həddindən artıq sərbəst, açıq-saçıq apardıqda dinimiz onu islah etmək üçün üç yol müəyyən etmişdir: 1) öyüd-nəsihət etmək; 2) yatağı ayırmaq; 3) döymək.

Bu tərbiyə vasitələrindən qadınların təbiətinə uyğun olaraq istifadə edilir. Qadın var ki, göz ucu bir baxış, bir kəlmə söz onun özünü düzəltməsi üçün kifayətdir. Bu cür qadınlar onlara verilən öyüd-nəsihətdən xoşnud olur, tez bir zamanda islah olunurlar.

Qadına nəsihət fayda vermədikdə ər tərbiyə vasitəsi, tənbeh üsulu kimi öz yatağını müəyyən bir müddət ərzində arvadının yatağından ayırıb onunla danışmaya bilər (8,X,90). Bəzi islam alimləri belə hesab edirlər ki, yatağı ayırmaq qadınlara pis təsir edəcəyi, daha təhlükəli nəticələrə gətirib çıxara biləcəyi üçün kişi arvadı ilə üç gün danışmadan, yaxınlıq etmədən eyni yorğan altında yata bilər (9,I,224). Bu isə onunla əlaqədardır ki, Peyğəmbərimiz (s.ə.s) müsəlmanın öz din qardaşı ilə üç gündən artıq küsülü qalmasını yasaq etmişdir.

Bu da fayda vermədikdə kişi üçüncü üsula əl ata, yəni qadını yaralamamaq şərtilə yüngülcə döyə bilər. İslam dini bu sonuncu üsulu vacib bilməmiş,onu ancaq başqa çıxış yolu olmadıqda tətbiq etməyi məqbul saymışdır. Qadını yola gətirmək məqsədilə döyməyə icazə verilməsi heç də kişinin istədiyi vaxt xanımı döyə bilməsi demək deyildir. Qurani-Kərimin özündə də qadını döymək sonuncu üsul kimi qəbul edilir.

"Nisa" surəsinin 34-cü ayəsində bu barədə belə buyurulur: "Özbaşnalıq etmələrindən qorxduğunuz qadınlara nəsihət edin, onlardan yatağınızı ayırın və (bunlar fayda vermədikdə) onları döyün. Sizə itaət etdikdə isə daha onların əleyhinə (əziyyət

vermək məqsədilə) başqa yol axtarmayn. Həqiqətən, Allah ucadır, böyükdür!"

Qadının nə cür döyülməsi islam alimləri arasında ciddi müzakirə obyekti olmuşdur. Onların əksəriyyəti belə hesab edirlər ki, qadını, Peyğəmbərimizin buyurduğuna uyğun olaraq, " dəvəni döyən kimi" döymək olmaz. Abdullah ibn Abbasa görə, qadını misvak (diş təmizləmək üçün istifadə olunan xırda çubuq) və ona bənzər şeylərlə döymək olar (7,V,173). Bəzi islam fəqihləri belə hesab edirlər ki, döymək kişinin əli ilə qadının qoluna yüngülcə toxunması deməkdir. Qadını qırmanc, zopa, dəmir və buna bənzər şeylərlə döymək olmaz. Fəxrəddin Razi İmam Şafiinin "döymək olar, ancaq döyməmək daha yaxşıdır" sözünü nəql etdikdən sonra qadının incidəcək, şikəst edəcək şəkildə  döyülməsinin yolverilməz olduğunu qeyd edir. Qadının gözəlliyini göstərən üzünə, başqa görünən yerlərinə vurmaq olmaz. Qadının döyülməsi ancaq şəfqətli bir atanın öz övladını, yaxud mərhəmətli bir müəllimin öz şagirdini döyməsinə bənzəməlidir (6,114). Onu da qeyd etmək lazımdır ki, Məhəmməd əleyhissəlam heç vaxt öz xanımlarına əl qaldırmamışdır. Əgər bu bəyənilən bir əməl olsaydı, Peyğəmbərimiz onu edərdi.

Bir daha qeyd etmək istəyirik ki, qadının döyülməsinə icazə verilməsi Allah və Rəsulunun möminlərə tövsiyə etdiyi sonuncu tövsiyə üsuludur. Burada əsas məqsəd yalnız və yalnız ailənin dağılmasının, boşanmanın qarşısını almaqdır. Çünki İslam dinində ailənin dağılmasına, boşanmaya çox pis baxılır və o, Allah yanında halal olan şeylərin ən pisi hesab edilir.

10. Ər-arvad öz aralarındakı ixtilafları özləri həll edə bilmədikləri, aradan qaldırmağa qadir olmadıqları təqdirdə onların yaxın qohumlarından münsiflər seçilib bu işin həlli onlara həvalə olunmalıdır. "Nisa" surəsinin 35-ci ayəsində bu haqda belə deyilir: "Əgər ər-arvad arasında ixtilaf olacağından qorxsanız, o zaman kişinin adamlarından bir nəfər, qadının da adamlarından bir nəfər münsif təyin edib (onların yanına) göndərin. Əgər onlar (ər-arvadı) barışdırmaq istəsələr, Allah da onların arasını düzəldər. Həqiqətən, Allah (hər şeyi) biləndir, (hər işdən) xəbərdardır!"

Münsiflər ədalətli, qərəzsiz, islam hüququnu bilən adamlar olmalıdırlar. Qohum-əqraba içərisində bu cür adamlar olmasa, bu işə kənar adamlar da cəlb edilə bilər (10, V, 26). Münsiflər ixtilaf doğuran, hər iki tərəfi narazı salan səbəbləri diqqətlə araşdırıb öyrənməli, kimin müqəssir olduğunu müəyyən etməli, narazılığa səbəb olan məsələləri aradan qaldırıb ərlə arvadın barışdırılmasına, ümumi dil tapmasına nail olmalı, beləliklə də ailənin dağılmasının qarşısını almalıdırlar.

Yuxarıda deyilənlər islam dininin evlənməyə, ailə qurmağa, ailənin möhkəmliyini, birliyini təmin etməyə, cəmiyyətə layiq övladlar yetirib tərbiyə etməyə, bütövlükdə nikaha və ailə etikasına nə qədər böyük önəm verdiyini əyani şəkildə sübut edir.

## ƏDƏBİYYAT

1. İbn Macə. Sunən, Misir, I-II, 1975.
2. Tirmizi. Sunən, Qahirə, I-V, 1937.
3. Əbu Davud. Sunən, I-V, Diməşq, 1969.
4. Abdullah Ulvan. Tərbiyətul-avladı fil-islam, Beyrut, I-II, 1978.
5. Buxari. Səhih, I-IV, İstanbul: 1979, (ofset).
6. Zeki Duman. Kur`an-i Kerimdə Adab-i Muaşeret. İstanbul: 2002.
7. Qurtubi, Əl-Cami li-əhkamil-Qur`anil-Kərim, I-X, Misir, tarixsiz.
8. Fəxrəddin Razi. Məfatihul-ğeyb, I-XVI, Tehran: II çapı, tarixziz.

9. Nəsəfi. Mədarikut-Tənzil və Həqiqətut-Tə`vil, Misir, I-IV, 1967.
10. Alusi. Ruhul-Məani, I-IV, Bulaq, 1301.

## БРАЧНЫЙ СОЮЗ И СЕМЕЙНАЯ ЭТИКА В ИСЛАМЕ

**В.М.МАМЕДАЛИЕВ, Г.Т.МАМЕДАЛИЕВА**

### РЕЗЮМЕ

Семья, будучи ячейкой общества, высоко ценится в исламе. В мусульманской религии морально-общественый и правовой статус семьи основательно зафиксирован, что строго защищается и шариатом, и государством. Ислам, как и другие божественные религии, считает семейный союз священным и категорически возражает против его расторжения.

## MARRIAGE AND FAMILY ETHICS IN ISLAM

**V.M.MAMMADALİYEV, Q.T.MAMMADALİYEVA**

### SUMMARY

The family being the kernel of society is highly valued in Islam. In Muslim religion moral-social and legal status of a family is fundamentally fixed which is seriously protected both by the Shariat and by the government. Islam as other divine religions, considers marriage holy and decisively objects against divorcing.